

# DƏNİZDİR, GÜNƏŞDİR, NƏĞMƏDİR VƏ O... AYNUR QAFARLI

VAQİF YUSİFLİ

**Şairə Aynur Qafarlının təzəcə çapdan çıxmış "Dənizdir, günəşdir nəğmədir, mənəm" şeirlər kitabı ilə tanış oldum və çox sevindim ki, bir istedadlı qələm əhlini də hiss etdim, duydum. "Mən bir sevda quluyam" şeirində : "Dilimdə söz daşıdım ürəyimdə eşq yükü" misralarını onun şeirlərinin başlıca motividir.**

Şairlər böyük Nizaminin kəlamıyla desək: "peyğəmbərlərdən sonra Yer üzünün ən müqəddəs şəxsləridir". Onlar bütün ömürləri boyu dillərində söz daşımışlar. Bus öz isə ürəyin və ruhun ehtiyacından doğub. Y\ni ürəkdə sevgi və eşq olmasa, o, dilə gəlməz. Dildən isə sözün əsl həyatı başlayırsözlər şeirə çevrilir, şeir isə yenidən ürəklərə qovuşur-minlərlə şeir aşiqinin ürəyinə Aygün Qafarlının şeirlərini oxuyanda da mən belə bir hiss keçirdim onun bir çox şeirləri ürəyimi tərpətdi.

Aynur xanımın "Dənizdir, günəşdir, nəğmədir, mənəm" şeirlər kitabına daxil olan şeirlərin böyük bir qismi sevgidəndir, dilində söz daşıyıb ürəyində eşq yükü olan bir şairin. Təbii ki, bu şeirlərin hamısından söz açmaq qeyri-mümkündür, ona görə də mən yalnız bəzi məqamlar üzərində dayanacağam.

Bütün Azərbaycan şairlri sevgidən, məhəbbətdən yazıblar, əgər belə demək mümkünsə, klassik və müasir poeziyamızın yetmiş faizi sevgi mövzusu ilə diqqəti cəlb edir. Təbii ki, sevgi mövzusu deyəndə, təkcə iki insanın bir-birilə qarşılıqlı münasibətiylə (ayrılıq-hicran, eşq əzabı və s.) yanaşı, həyata, dünyaya fəlsəfi, ictimai baxışları da əks olunur. Amma sırf sevgidən Leyli-Məcnunluqdan söz açan şeirlərin əsasında Aşiq və Sevilən Qadın (məşuq) obrazları durur.Aynur Qafarlı da bu ənənənin davamçısıdır. Onun lirik qəhrəmanı sevgi ilə yaşayıb dünyaya, cahana, gözəlliyə sevgi ilə boyoanan, ürəyi eşq ilə çırpınan bir zərifdir. Zərif deyəndə mən həmişə şairələri belə adlandırıram.

Aynur Qafarlının lirik qəhrəmanı onun özüdür desəm, bəlkə də səhv etmiş olaram. Doğrudur, çox şairlər xüsusilə, yazdıqları şeirlərin son misralarında öz adlarını çəkir amma bu şeirlər həm də bütün sevənlərə aiddir.

***Aza baxma, çoxa baxma,***
***Lap bol-bol sev, sevirsənsə.***
***Bir dəfəyə heç nə olmur,***
***Milyon yol sev, sevirsənsə.***

***Qoyma eşqim kamsız qala,***
***Söz verdinsə durma dala,***
***Öz qanınla çək, imzala,***
***Bu eşqə qol, sevirsənsə.***

Zənnimcə, bu misralar sevgi aləminin bütün eşq yolçularına aiddir. Ancaq təbii ki, aynurun sevgi şeirlərinin qəhrəmanı özünəməxsus cəhətləri ilə seçilir. Nədir bu özünəməxsusluq? İlk baxışdan bu özünəməxsusluğu təyin etmək mümkün olmur.

Gah sevgilisinin vəfasızlığından şikayətlənir, gah onu hədsiz dərəcədə sevdiyini etiraf edir gah xatirələr işığında yol gedir (bu xatirələr çox zaman ona əzab gətirir), gah da sevdiyi insanın var olmağını (təki yaşasın, onu sevsin) arzulayır. Amma bütün bunlara baxmayaraq, biz sevən bir qəlbin həyəcanlarını duyuruq, məhz əsl sevən qadın belə olmalıdır qənaətinə gəlirik.

***Ayağım yerimir başqa tərəfə,***
***Dönüb sənə tərəf meyllənirəm.***
***Küçə uşağına dönmüşəm artıq,***
***Gəlib məhlənizdə zeyillənirəm.***

İlk baxışdan bir sevgi şeirində "küçə uşağı" ifadəsi xoşagəlməz səslənə bilər. Amma bu şeirdə həmin ifadə yerinə düşür.

***Həsrət çəkən gözlərim,***
***Yaş tökəcək gəlməsən.***
***Tanrı göydən başıma,***
***Daş tökəcək, gəlməsən.***

Bu misralar da sevgidə inam hissini ifadə edir. Klassik poeziyada da belə ifadələrə rast gəlmişik (xüsusilə, dahi eşq şairi Füzulidə).

Aynurun sevgi şeirlərində bir Yuxu obrazı da var. Yuxu sevən insanların röya ilə həqiqət arasında məcazi bir körpü rolunu oynayır.

***Qovuldu zülmətim, söküldü danım,***
***Sübhədək şipşirin keçdi hər anım.***
***Məni darıxmağa qoymadın canım,***
***Bu gecə yuxumun qonağı oldum.***

***Bu bəyaz gecənin şirinliyində***
***Uzandım bir çinar sərinliyinjə.***
***Aynuram, yuxumun dərinliyində***
***Bu gecə yuxumun qonağı oldum.***

Aynurun sevgi şeirləri haqqında çox danışmaq olar. Bu şeirlər göstərir ki sevgi insan həyatının ən müqəddəs hissiyyatıdır. Sevgi insanı mənən kamilləşdirir, insanı saflaşdırır, duruldur, onu hər cür neqativ hadisələrdən, pislikdən şərdən xilas edir.

***Sənsən qəlbimdəki od,***
***Sənsən içimdəki səs.***
***Get dünyanı dolan, gəl***
***Bir kimsə sevə bilməz***
***Səni sevdiyim qədər.***

***Sənsiz nəfəs almaram***
***Bu dünyada, bil bunu.***
***Belə sevə bilməyib,***
***Leyli də heç Məcnunu,***
***Səni sevdiyim qədər.***

Bizcə, bu şeir onun bütün şeirləri üçün bir sevgi kredosudur.

Bir cəhəti də qeyd etməyi lazıfm bilirəm. Aynur Qafarlının əksər sevgi şeirləri nəğmə kimi oxunur. Bu şeirlərin əsasında mahnı da bəstələmək olar. Şairin bu kitabını təkcə sevgi şeirləri ilə məhdudlaşdırmaq istəməzdik. Əgər sən şair adını daşıyırsansa, ətraf aləmdə, cəmiyyətdə, ölkədə baş verən hadisələrə, çeşid-çeşid olaylara da öz münasibətini bildirməlisən.

"Başını uca tut, Vətən" silsiləsində olan şeirlər fikrimizi sübut edir:

***Biri eşqim, ruhum, birisi candır,***
***Mənə ilahidən cüt ərməğandır.***
***İkisi bir yerdə Azərbaycandır,***
***Mənim Qarabağım-mənim ürəyim.***

Onun "Şəki", "Gədəbəy", "Türkün xilaskarı-Tayyub Ərdoğan", "Dillən, telli sazım", "Vətən eşqinə", "Zəfər vaxtıdır", "Bir şəhid əsgərə", "Qələbəmiz öndəlir", "azərbaycan əsgəri" şeirləri əsl vətənpərvərlik duyğularını ifadə edir.

Aynur Qafarlının "Ömür yolu" şeiri ilə bu yazını tamamlamaq istərdim.

Bu şeir Aynur xanımın və eləcə də, hamımızın dünya və ömür yolu haqqında düşüncələrimizin ifadəsi ola bilər

***Ömrümüzün bu başından,***
***O başına bir qarışdı.***
***Aradakı sərhəddə bax,***
***O da cəmi bir qarışdı.***

***Bu dünya bir gör-götürdü,***
***Gör kimini kim ötürdü.***
***Görən məni kim itirdi,***
***Kim aradı, kim soruşdu.***

***Mən Aynuram, gerçək budu,***
***Dil-dil ötür dərdin udu.***
***Həyatımız dedi-qodu,***
***Həm savaşdı, həm barışdı.***

ədalət.- 2021.- 14 avqust.- S.7.